# Koreya kinosu festivalından təəssüratlar

**Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatının böyük iclas zalında Azərbaycan Mədəniyyət Fondu, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası, Koreya Fondunun təşkilatçılığı və Koreya Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə keçirilən Azərbaycanda Koreya kino festivalı davam edir. Kinofestivalda iştirak edən tamaşaçılar təəssüratlarını bölüşürlər:**



**YAP Gəncə şəhər təşkilatı ideoloji şöbəsinin müdiri Hüseyn Budaqov:**

- Yeni Azərbaycan Partiyasının böyük zalında həftəboyu davam edən Koreya filmlərinin nümayişi son vaxtlar kino salonlarında görünməyən tamaşaçı fəallığına səbəb olub. Koreya və Azərbaycan xalqlarının mədəni əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edən bu festival filmlərində hadisələr dar məkanda - gah həndbol meynançasında, gah üzgüçülük hovuzunda, gah da sirk arenasında cərəyan etsə də, filmlərdə insanları düşündürən ümumbəşəri məqamlar və dəyərlər çoxdur. İnadkarlıq, Vətən və ana sevgisi və digər lirik notlarla yüklənmiş hisslər tamaşaçılarda kövrək duyğular oyadır. "Təkcə sən" filmində olduğu kimi. Koreyalı gənclərin ümidsiz şəraitdə vəziyyətdən çıxmaq üçün apardıqları inadkar mübarizə və çətinliklərə qalib gəlmələri bizim gənclər üçün də maraqlıdır. Azərbaycanlı rejissorun çəkdiyi "Onu bağışlamaq olarmı?" filminin süjet xətti ilə "Məni həbs et" filmində oxşarlıq var .

Qloballaşma dövründə müxtəlif xalqların , millətlərin, dövlətlərin, mədəniyyətlərin beynəlxalq dialoqu şəraitində milli özünəməxsus və mənsubluğun qorunub saxlanması baxımından da belə festivalların keçirilməsi təqdirəlayiqdir.



**2 saylı tam orta məktəbin müəllimi Yeganə Yolcuyeva:**

- Tariximizi böyüməkdə olan nəslə hərtərəfli və düzgün öyrətmək, habelə başqa xalqların mədəniyyətinə və adət-ənənələrinə hörmət və məhəbbət hissi ilə yanaşmağı tərbiyə etmək vacib məsələlərdən biridir. Gənclərin mənəvi inkişafında təhsillə yanaşı, ətraf mühitin, mədəniyyətin təbliğinin də rolu böyükdür. Onlar tədris zamanı dövlətçilik tariximiz, mənəvi dəyərlərimiz, Milli Qəhrəmanlarımız, görkəmli şəxsiyyətlərimiz, ədiblərimiz barədə məlumat alırlar ki, bu da onların mənəvi inkişafında böyük rol oynayır. Təhsil müəssisələrində bu istiqamətdə müvafiq dərslər tədris olunur. Lakin onların əyani şəkildə tarixi abidələri, muzeyləri ziyarət etmələri, filmlərə tamaşa etmələri gənclərin mənəvi inkişafına böyük təsir göstərir. Bu baxımdan Gəncə şəhərində keçirilən Koreya kinosu festivalının böyük əhəmiyyəti var.



**Gəncə Dövlət Universitetinin tələbəsi Kəmalə Quliyeva:**

- Koreya dünya ölkələri arasında qədim tarixi, özünəməxsus mədəniyyəti ilə fərqlənir. Bu ölkə dünya hegemonlarının uzun müddətə öz təbii ehtiyatları hesabına əldə etdikləri inkişafa çox qısa müddət ərzində, sadəcə xalqın iradəsi sayəsində nail olub. Bu gün Koreya Respublikası dünyanın ən qabaqcıl inkişaf etmiş ölkələri arasında aparıcı yer tutur. Vaxtilə digər ölkələrdən yardım alan Koreya bu gün iqtisadi baxımdan zəif ölkələrə qrantlar ayırır. Bu ölkənin tarixi, adət-ənənəsi, mədəniyyəti, keçdiyi inkişaf yolu ilə bağlı daha ətraflı məlumat əldə etmək üçün Koreya kinosu festivalı lap yerinə düşdü.

Ölkələrimiz arasında əlaqələrin inkişafı üçün xalqlar arasında da münasibətlərin genişlənməsinə nail olmaq lazımdır. Müxtəlif səfərlər, sərgilər, seminarlar , kinofestivallar bu əlaqələri daha da artıracaq. Belə bir atalar sözü var: "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək daha yaxşıdır". Koreya Respublikasına əyani şəkildə gedə bilməsək də, filmlər vasitəsilə onların mədəniyyəti, adət-ənənəsi, milli mətbəxi, tarixi, məişət problemləri, gündəlik həyat fəaliyyətləri haqqında lazımınca məlumat toplaya bilirik.

Beləliklə, Koreya kinosu festivalının təşkili də iki ölkə arasında münasibətlərin genişlənməsində növbəti bir addımdır.

✍ **Hicran Məmmədova**